*“Balakən Azərbaycanın çox gözəl guşəsidir”* **İlham ƏLİYEV**




# YENİ BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 10 (17) ✦ 31 oktyabr 2025-ci il


# Balakəndə V Xurma festivalı keçirildi















Oktyabrın 29-da Balakən rayonunun kənd təsərrüfatı üçün ənənəvi sahələrdən olan xurmaçılığın daha geniş təbliğ edilməsi məqsədilə V Xurma festivalı keçirildi.

Balakənlilər tarixən məhsul yığımını, məhsul bolluğunu böyük sevinc hissi ilə, şənliklər keçirərək qeyd ediblər. 2017-ci ildə rayonda ilk dəfə Xurma festivalı keçirilməklə gözəl ənənənin təməli qoyulub.

Qoz-fındığı, tərəvəzi, meyvəsi ilə tanınan Balakən beşinci dəfə Xurma festivalına ev sahibliyi edib. Balakən Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Kənd Təsərrüfatı və Mədəniyyət nazirliklərinin, Aqrar İnnovasiya Mərkəzinin, “Balxurma” MMC-nin dəstəyi ilə reallaşan festivalda nazirlik və dövlət qurumlarının nümayəndələri, xurma istehsalçıları və ixracatçıları, həmçinin rayon sakinləri iştirak etdilər.

Ümummilli Lider Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında keçirilən festivalın rəsmi açılış mərasiminin əvvəlində qonaqlar şərbət, çörək və meyvələrdən hazırlanmış xonça ilə qarşılanıblar. Festival iştirakçıları parkın ərazisində xurma ağacları əkdilər.

Sonra festival iştirakçıları bayramsayağı bəzədilmiş parkda xurmadan hazırlanmış kulinariya məhsullarına və kompozisiyalara, kənd təsərrüfatı məhsullarının sərgilərinə baxıblar. Xurma, alma, armud, qoz, fındıq və digər meyvələr, “Azəryem Sənaye” MMC-nin, konserv zavodunun istehsal etdiyi müxtəlif çeşiddə məhsullar festival iştirakçılarının böyük marağına səbəb olub. Həmçinin  qonaqlar kənd təsərrüfatı məhsullarının satışı yarmarkası ilə tanış olublar, Balakən mətbəxinin nümunələrindən dadıblar, folklor kollektivlərinin çıxışı festivalın ab-havasına xüsusi rəng qatdı.

Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış edərək festival iştirakçılarını əlamətdar bayram münasibətilə təbrik edib. Bildirib ki, xurma festivalının keçirilməsi Balakən rayonu üçün xüsusi önəm daşıyan layihədir. Festival Balakəndə kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafını stimullaşdırır. Festival yerli məhsulların xarici bazarlarda satışının təşviqi baxımından da böyük əhəmiyyət daşıyır. Xurma festivalının keçirilməsi, eyni zamanda, milli adət-ənənələrinin, qonaqpərvərliyinin, rayonun turizm imkanlarının tanıdılmasında, xurmanın, ondan hazırlanan məhsulların təbliğində önəmli rol oynayır. Diqqətə çatdırılıb ki, Balakən rayonu xurma istehsalına görə respublikada öncül yerlərdən birini tutur. Hazırda rayonda 838 hektar xurma bağı var.

Qeyd edilib ki, son illər rayonda özəl sərmayələr hesabına meyvələrin, o cümlədən xurmanın qurudulmuş formada istehsalı ilə məşğul olan "Balxurma" və “Balacans” Konserv zavodlarının nəzdində “Balakan Foods” müəssisələri yaradılıb. Müəssisəsində istehsal üçün meyvələr rayonun və digər rayonların sakinlərinin şəxsi xurma sahələrindən yığılır. Tam gigiyenik, ekoloji cəhətdən təmiz xurma məhsulları daxili və xarici bazarlara ixrac edilir.

Tədbirdə həmçinin Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov və Xurma İstehsalçıları və İxracatçıları Assosiasiyasının İdarə heyətinin sədri Qadir Yusifov çıxış edərək, bu gün ölkəmizdə qeyri-neft məhsulları üzrə ixrac imkanlarının artırılmasında meyvəçiliyin mühüm rol oynadığını, Azərbaycandan xarici bazarlara ixrac olunan məhsullar sırasında xurmanın xüsusi yer tutduğunu vurğulayıb, festivalın işinə uğurlar arzuladılar.

V Xurma festivalı respublikanın və yerli tanınmış incəsənət ustalarının iştirak etdiyi konsert proqramı ilə başa çatdı.

**Yeni Balakən**















# MÜƏLLİM ADI – ŞƏRƏFİN ZİRVƏSİ

# Balakəndə 5 Oktyabr – Ümumdünya Müəllimlər Günü münasibətilə təntənəli tədbir keçirildi

**"Mən dünyada müəllim adından yüksək, şərəfli ad tanımıram."**

**Heydər Əliyev**





5 Oktyabr – Ümumdünya Müəllimlər Günü dünyanın bir çox ölkəsində olduğu kimi, Azərbaycanda da böyük ehtiramla qeyd olunur. Müəllimlik peşəsi yalnız bilik vermək deyil, həm də insan yetişdirmək, cəmiyyətin gələcəyini formalaşdırmaq missiyasıdır. Bu müqəddəs peşənin sahiblərinə hörmət və minnətdarlıq ifadə etmək üçün Balakəndə də xüsusi tədbir təşkil olundu.

Tədbir günün ikinci yarısında başladı. Dövlət himninin səsləndirilməsi və şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə açılış edildi. Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin humanitar məsələlər üzrə müavini Nəzakət Rüstəmova, Şəki-Zaqatala Regional Təhsil İdarəsinin İnzibati Təşkilat Sektorunun müdiri Rauf Əsədov, Balakən Təhsil Sektorunun müdiri Mehparə Mirzəyeva, məktəb direktorları, bağça müdirləri, müəllimlər, şagirdlər və şəhid ailələri iştirak edirdilər.

İlk çıxış edən Nəzakət Rüstəmova Balakən təhsilinin uğurlarından söz açaraq, yüksək bal toplayaraq nüfuzlu ali məktəblərə qəbul olan tələbələrin yetişdirilməsində əməyi olan müəllimlərə təşəkkürünü bildirdi. O, həmçinin Balakən RİH başçısı İslam Rzayevin təbriklərini pedaqoji kollektivə çatdırdı.

Ardınca çıxış edən Rauf Əsədov region təhsilindəki inkişafdan danışaraq Balakənin bu uğurlara verdiyi töhfəni vurğuladı. O, Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudovanın təbriklərini çatdıraraq müəllimlərə uğurlar arzuladı.

Balakən Təhsil Sektorunun müdiri Mehparə Mirzəyeva isə çıxışında müəllimlərin peşəkarlığını, onların yetişdirdiyi şagirdlərin respublika miqyasında göstərdiyi nəticələri qeyd etdi. Bildirdi ki, bu ilki məzunların 50%-dən çoxu ali məktəblərə qəbul olunaraq tələbə adını qazanıb. O, tədbir iştirakçılarına təşəkkürünü bildirərək, birlikdə Balakən təhsilinin adını daha da yüksəklərə qaldıracaqlarına inandığını vurğuladı.

Tədbirdə şəhid anaları – Zümrüd müəllimə və Tinay müəllimə də çıxış edərək müəllimin el-oba üçün yanan şam olduğunu, bilik ziyası ilə cəhalət qaranlığını aydınlatdığını poetik dillə ifadə etdilər. Onlar şagirdlərinin uğuruna öz övladlarının uğurundan daha çox sevindiklərini qeyd etdilər.

Tədbirə bədii rəng qatan anlar da oldu: məktəb direktorunun öz yazdığı şeirin səsləndirilməsi, şagirdlərin poetik çıxışları və şəhid İbadov Faiqin oğlu İsmixanla şəhid Köklərov Sərxanın qızı Məryəmin birgə rəqsi alqışlarla qarşılandı.

Sonda təhsil sahəsində fərqlənən bir qrup direktor, müəllim və əməkdaş Balakən RİH, Elm və Təhsil Nazirliyi, Şəki-Zaqatala Regional Təhsil İdarəsi, Balakən Rayon Təhsil Sektoru və ETİHİ Balakən rayon Komitəsi tərəfindən Fəxri Fərmanlarla təltif olundu. Tədbir xatirə fotosu ilə yekunlaşdı.

**...və sonda**

Balakənin təhsil camiəsi bu bayram günündə bir daha sübut etdi ki, müəllimlik sadəcə peşə deyil – bu, ürəklə seçilən bir missiyadır. Müəllimlərimiz təkcə bilik vermir, həm də şəxsiyyət formalaşdırır, gələcəyin memarlarını yetişdirirlər. Onların əməyi ilə Balakən daha işıqlı, daha savadlı sabahlara doğru addımlayır.

Bu bayram günündə bir daha əmin olduq:

**Müəllim – elin nurudur, cəmiyyətin vicdanıdır, gələcəyin yolçusudur.**

**Ramazan Abal**

# Balakəndə narkomaniyaya və dini radikalizmə qarşı birgə mübarizə: maarifləndirmə tədbiri keçirildi

Oktyabrın 7-də Balakən rayonu N.Davudov adına Şərif 1 saylı kənd tam orta məktəbində narkomaniya,dini radikalizmə və digər zərərli vərdişlərə qarşı mübarizəyə həsr olunmuş maarifləndirmə tədbiri keçirilib. Tədbir Balakən Rayon İcra Hakimiyyəti və Rayon Polis Şıobəsinin birgə təşkilatçılığı ilə, Balakən Rayon Təhsil Sektoru, "Balakən rayon mərkəzi xəstəxanası" publik hüquqi şəxs, Dini Qurumlarla İş üzrə Dıovlət Komitəsinin nümayəndələri və din xadimlərinin iştirakı ilə baş tutub.





Tədbiri giriş sıozü ilə açan Balakən RİHB-nin birinci müavini, Narkomanlığa və narkotik vasitələrin qanunsuz dıovriyyəsinə qarşı mübarizə üzrə rayon komissiyasının sədri Turan Dibirov Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 17 sentyabr 2025-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2025–2030-cu illər üçün Dıovlət Proqramı"nın əhəmiyyətindən danışıb. O, proqramdan irəli gələn vəzifələri tədbir iştirakçılarına izah edərək, ıolkəmizdə narkomaniya ilə mübarizə sahəsində gıorülən işlərə dair geniş məlumat verib.

Tədbirdə çıxış edən Dıovlət Komissiyasının daimi fəaliyyət gıostərən İşçi Qrupunun məsul əməkdaşı Şahin İsmayılov, RPŞ-nın Qabaqçıol bıolməsi üzrə rəisi Vilayət Allahverdiyev, Təhsil sektorunun müdiri Mehparə Murtuzəliyeva, cərrahiyyə şıobəsinin həkim-narkoloqu Əsgər Axundov, DQİDK-nın Zaqatala bıolməsinin məsləhətçisi Ruslan Əfəndiyev və Qabaqçıol qəsəbə məscidinin imamı Ramazan Xutrayev narkomaniyanın fəsadları, onun cəmiyyətə və gənclərə təsiri, eləcə də bu bəla ilə mübarizədə maarifləndirmənin rolu barədə fikirlərini bıolüşüblər.

Tədbirin sonunda iştirakçılar auditoriyanın suallarını cavablandıraraq,iştirakçılara maarifləndirici bukletlər paylanılıb, gənclərin bu sahədə məlumatlı olmasının vacibliyini vurğulayıblar.

**Yeni Balakən**



# Balakən rayonunda immunizasiyadan kənarda qalan uşaqların tibbi müayinəsi və peyvəndlənməsi həyata keçirilib

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Ümumdünya Səhiyyə Təşkilatı və TƏBİB tərəfindən Balakən və Zaqatala rayonlarında İmmunizasiya təlimindən sonrakı qiymətləndirmə və peyvənddən kənarda qalan uşaqların vaksinasiyaya cəlb edilməsinə dəstək məqsədilə səfər təşkil olunub.

Səfər çərçivəsində hər iki rayonda immunizasiyadan kənarda qalan uşaqların tibbi müayinəsi və peyvəndlənməsi həyata keçirilib. Paytaxtdan ezam olunmuş həkim-pediatrlar tərəfində peyvənddən imtina edən və ya tərəddüd edən valideynlərlə görüşərək maarifləndirici söhbətlər aparılıb, daha 229 uşaq müayinələrə cəlb ediblər və 107 uşaq peyvənd olunub.

Səfər çərçivəsində iki rayon üzrə 2 ailə sağlamlıq mərkəzi və 8 həkim məntəqəsində, ümumilikdə 18 həkim-pediatr və 12 peyvəndə məsul tibb işçisi ilə strukturlaşdırılmış sorğu əsasında "Uşaqların immunizasiyası üzrə təlimat"ın tətbiqi və immunizasiya xidmətlərinin keyfiyyəti qiymətləndirilib.

Bütün müəssisələrdə həkim və vaksinasiya otaqları "Uşaqların immunizasiyası üzrə təlimat"la təmin olunub.

Qeyd edək ki, təlimatın tətbiqi tibb işçilərinin peşəkar fəaliyyətini istiqamətləndirir və xidmət keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir. Tibb işçiləri təlimatda yer alan yeniliklər barədə məlumatlı olur və gündəlik fəaliyyətlərində beynəlxalq yanaşmaları fəal şəkildə tətbiq edirlər.

**Yeni Balakən**

# Balakəndə Energetiklərin Peşə Bayramı qeyd olundu



20 oktyabr Azərbaycanda Energetiklərin Peşə Bayramı kimi qeyd olunur. Bu tarix Prezident İlham Əliyevin sərəncamı ilə təsis edilmişdir. Sərəncamda qeyd olunur:

**"Azərbaycan energetiklərinin ölkə iqtisadiyyatının inkişafındakı xidmətlərini nəzərə alaraq qərara alıram: Hər il oktyabrın 20-si Azərbaycan Respublikasında 'Energetiklər Günü' peşə bayramı kimi qeyd olunsun."**

Bu münasibətlə Balakən Elektrik Şəbəkəsinin kollektivi Dağüstü parkda keçirilən tədbirdə bir araya gəldi. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək onun xatirəsini ehtiramla yad etdilər.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış edərək energetikləri peşə bayramı münasibətilə təbrik etdi. O, energetika sahəsinin çətin və məsuliyyətli olduğunu vurğulayaraq, xidmət sahələrində çalışanların vətəndaşlara operativ, keyfiyyətli və qüsursuz xidmət göstərməsinin vacibliyini xatırlatdı. Rzayev Balakən Elektrik Şəbəkəsinin fəaliyyətindən razılığını ifadə edərək kollektivə uğurlar arzuladı.

Şəbəkənin rəisi Sabit Məmmədov çıxışında rayon rəhbərinə təşəkkürünü bildirərək, kollektivin nümunəvi xidmət göstərməkdə qərarlı olduğunu qeyd etdi.

Tədbirdə işlərində fərqlənən bir qrup əməkdaşlar da mükafatlandırıldı. Balakən RİH-in başçısı İslam Rzayev aşağıdakı əməkdaşları "Fəxri Fərman"la təltif etdi:

**Xalayev Abdulla Tinamahama oğlu** – PŞİ üzrə elektrik montyoru

**Yolcuyev Gündüz Osman oğlu** – YST xidməti üzrə elektrik montyoru

**Layıcov Əlixan İsmixan oğlu** – PŞİ xidməti üzrə elektrik montyoru

**Nəbiyev Nizami Hümbət oğlu** – PŞİ xidməti üzrə elektrik montyoru

Tədbirin sonunda iştirakçılar xatirə şəkli çəkdirdilər.

**Energetiklərə Dəyər Verən Cəmiyyət Güclü Cəmiyyətdir**

Energetika sahəsində çalışanların əməyi gündəlik həyatımızın ayrılmaz hissəsidir. Onların fədakar və məsuliyyətli fəaliyyəti sayəsində evlərimiz işıqlanır, müəssisələr işləyir, ölkə inkişaf edir. Balakəndə keçirilən bu tədbir bir daha göstərdi ki, energetiklərə verilən dəyər təkcə sözlə deyil, əməli şəkildə də ifadə olunur. Bu gün onların bayramı idi — həm təbrik, həm təşəkkür, həm də ruhlandırıcı bir görüş.

Tədbirdən çəkilən fotolar bu günün yaddaşlarda qalmasına xidmət edəcək. Energetiklərin peşə bayramı münasibətilə keçirilən bu görüş həm kollektiv ruhunu gücləndirdi, həm də gələcək uğurlar üçün motivasiya yaratdı.

**Ramazan Abal**

# Balakəndə "Əfsanəvi kəşfiyyatçı – türk Harun" kitabının təqdimatı keçirildi

Balakən rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi, XTQ baş kəşfiyyatçısı Harun Məhəmməd oğlu Alqayevin anım günü münasibətilə onun qəhrəmanlıq yoluna həsr olunmuş "Əfsanəvi kəşfiyyatçı – türk Harun" adlı kitabın təqdimat mərasimi keçirildi.

Tədbir Balakən Rayon İcra Hakimiyyətinin dəstəyi, Balakən rayon Mədəniyyət Mərkəzi və Talalar kənd Sənətkarlıq Evinin birgə təşkilatçılığı ilə baş tutdu. Mərasimə Bakı şəhərindən dəvət olunmuş qonaqlar, kitabın müəllifləri — filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Türk Xalqları Qardaşlığı İctimai Birliyinin sədri Səkinə Bayramova və dosent Yeganə Qəhrəmanova, şəhid ailələri, qazilər, təhsil işçiləri və rayon ictimaiyyəti qatılmışdı.




Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinə bir dəqiqəlik sükutla başladı. Mərasimi Balakən Mədəniyyət Mərkəzinin direktoru, ustad sənətkar Arzu Ocaqverdiyev aparırdı.

Çıxış edənlər — Ağa Ağayev, Hacı Muradov, Harunun valideynləri Məhəmməd ata və Kifayət ana, gəlinbacısı Pirdas xanım, müəlliflər Səkinə Bayramova və Yeganə Qəhrəmanova — Harun Alqayevin igidliyindən, vətənə olan sonsuz sevgisindən və döyüş yolundan danışaraq onun qəhrəmanlığının gələcək nəsillər üçün örnək olduğunu vurğuladılar.

Zaqatala rayonundan gəlmiş şəhid analarının çıxışları tədbirə xüsusi duyğusallıq qatdı. Onlar şəhid övladlarının cismən yoxluğunu mənən varlıqları ilə yaşatdıqlarını ifadə etdilər. Şəhid bacısı Mehparə Murtuzəliyevanın çıxışı isə iştirakçılara duyğulu, həzin anlar yaşatdı.

Harun Alqayevin müəlliməsi olmuş Ayşə Alqayeva çıxışında Harunun hələ məktəb illərində hərbiyə olan marağını xatırlayaraq, onun qəhrəman olacağını öncədən hiss etdiyini bildirdi və belə bir igidin müəllimi olmaqdan qürur duyduğunu söylədi.

Tədbirin bədii hissəsində şəhidin həyatına həsr olunmuş film nümayiş olundu, şeir kompozisiyaları təqdim edildi, vətənpərvərlik ruhunda mahnılar səsləndirildi və "Türk Harun" adlı səhnəcik nümayiş etdirildi.

Qəhrəmanlıq unudulmur, yaşadılır…

Bu təqdimat mərasimi bir daha sübut etdi ki, Harun Alqayev kimi igidlərin xatirəsi təkcə ailələrinin deyil, bütün xalqın yaddaşında əbədi yaşayır. "Əfsanəvi kəşfiyyatçı – türk Harun" kitabı onun döyüş yolunu, vətənə olan sevgisini gələcək nəsillərə çatdırmaq üçün yazılmış bir mənəvi körpüdür. Balakən bu gün bir daha öz qəhrəmanına baş əydi, onun ruhunu yaşatdı.

**Yen Balakən**

# Sarıbulaqda ilk addımlar: Xatirə müəllimənin sinfi dərsə başladı



Bu gün, oktyabrın 1-i, respublikamızın bütün ümumtəhsil məktəblərində məktəbəqədər hazırlıq siniflərində dərslər başladı. Beş yaşı tamam olmuş balacalar ilk dəfə parta arxasında əyləşdilər — kimisi maraqla, kimisi həyəcanla, kimisi də anasından ayrılmaq istəmədiyindən göz yaşlarıyla. İlk dəfə müəllim qarşısında oturmaq, ilk dəfə "müəllim" sözünü eşitmək, ilk dəfə sinif yoldaşları ilə tanış olmaq — bu gün onların həyatında unudulmaz bir başlanğıc oldu.

Bu başlanğıclardan biri də M.F.Axundov adına Sarıbulaq kənd tam orta məktəbində yaşandı. Baradova Xatirə müəllimənin sinif rəhbəri olduğu məktəbəqədər hazırlıq sinfi bu gün ilk dərsini keçdi. Sinif otağında balacaların maraqlı baxışları, valideynlərin sevinc və həyəcan dolu gözləri, müəllimənin qürurla dolu ürəyi bir araya gəldi. Valideynlər əlindən tutub məktəbə gətirdikləri övladlarının parta arxasında oturuşundan, ilk addımlarından fərəh duyur, gələcək arzularının ilk pilləsinə qədəm qoyduqlarını hiss edirdilər.

Xatirə müəllimə üçün bu gün ikiqat bayram idi. Bu onun müəllimlik həyatında ilk sinifi idi. İllərdir arzuladığı, kəndin balalarına bilik, təlim və tərbiyə vermək istədiyi o müqəddəs an nəhayət gerçəkləşdi. Müəllimlik peşəsinin şərəfini, məsuliyyətini və sevgisini ürəyində daşıyan Xatirə müəllimə bu sinifi öz vəsaiti ilə zövqlə bəzəmiş, balacaları sevgi ilə qarşılamışdı.

Valideynlərin dəstəyi bu uğurun arxasında dayanan ən böyük güc idi. Onlar Xatirə müəllimənin savadına, pedaqoji bacarığına inanaraq təkidlə övladlarının onun sinfində olmasını istəmişdilər. Hətta əgər bu sinif ona verilməzsə, uşaqlarını başqa məktəbə aparacaqlarını bildirmişdilər. Bu həm müəlliməyə olan inamın, həm də təhsilə olan dərin bağlılığın göstəricisi idi.

"Bəziləri", savadsız və laqeydlər ucbatından peşəkar müəllimlərə sinif verilmirdi. Amma bu gün Sarıbulaqda həm valideynlərin, həm də Xatirə müəllimənin arzuları gerçəkləşdi. Bu sinif — sevgi ilə bəzədilmiş, inamla qurulmuş, gələcəyə ümidlə açılmış bir qapıdır.

Bu günün sevinci, bu sinifin başlanğıcı — gələcəyin uğurlarının müjdəçisidir. Körpə fidanlar Xatirə müəllimənin qayğısı ilə böyüyəcək, məktəbin uğurlarında onun da imzası olacaq. Və bir gün bu balacalar böyüyəndə, ilk müəllimlərini — Xatirə müəlliməni — sevgi ilə xatırlayacaqlar...

**Ramazan Abal**

# Şəhid Vahid Əlisoltanovun 5-ci Anım Günü: Tarixi Qəhrəmanlığa Duyğusal Hörmət

27 sentyabr – 10 noyabr 2020. Bu 44 gün Azərbaycan tarixinin ən şərəfli səhifələrindən birinə çevrildi. Bir neçə gündən sonra bu tarixi zəfərin 5 illiyi tamamlanacaq. Bu 44 gündə yalnız torpaqlarımız azad olunmadı — Türk dünyasının vizionu dəyişdi, Azərbaycan öz gücünü, iradəsini və milli kimliyini dünyaya nümayiş etdirdi.

Vahid Azərbaycan — gələcəkdə olacağımız bir ideal deyil, qədimlərdən bəri sahib olduğumuz, ruhən yaşadığımız bir bütöv varlıqdır. 44 günlük Vətən müharibəsi bu bütövlüyə doğru atılan konkret addım idi. Bu addımın memarları Ali Baş Komandan və onun komuta etdiyi ordunun igid əsgərləri, şəhidlərimiz, qazilərimiz və müharibə iştirakçılarıdır.



**Vahid Əlisoltanov – Müasir Tank Döyüşlərinin Siması**

Bu gün Balakənin igid oğlu, gizir Vahid Tahir oğlu Əlisoltanovun şəhadətinin 5-ci ildönümüdür. 2020-ci ilin oktyabrında Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalan Vahid, Həzi Aslanov məktəbinin müasir nümunəsi kimi yaddaşlara həkk olundu.



**Anım Mərasimi – Xalqın Vəfa Borcu**

Balakənin Şəhidlər xiyabanında keçirilən anım tədbiri Azərbaycan Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinə bir dəqiqəlik sükutla başladı. Tədbiri respublika səviyyəli müsabiqələrin qalibi, Nizami adına şəhər 1 saylı tam orta məktəbin şagirdi Səadət Cerciyeva aparırdı.

Din xadimi Rövşən İbrahimov Qurani-Kərimdən ayələr oxuyaraq şəhidlərin ruhuna dualar etdi. Rəsmi hissədə çıxış edən Ağa Ağayev, Hacı Muradov,Balakəndən və digər rayonlardan olan şəhid valideynləri,şəhidin müəlliməsi Vahidin qəhrəmanlığından danışaraq onunla qürur duyduqlarını bildirdilər.

Məktəblilərin səsləndirdiyi şeirlər tədbirə poetik ruh qatdı, gənclərin vətənpərvərlik hisslərini alovlandırdı.

Sonda Tahir ata iştirakçılara təşəkkür edərək onları "QRAND PALACE" ailəvi məkanında təşkil etdiyi ehsan süfrəsinə dəvət etdi.

**İctimaiyyətin Tam Tərkibdə İştirakı**

Tədbirdə Balakən RİH, din xadimləri, qazilər, şəhid ailələri, məktəblilər, YAP, Asan Xidmət, QHT-lər və rayon ictimaiyyəti tam tərkibdə iştirak etdi. Bu, Vahid Əlisoltanovun xatirəsinə olan ümumxalq ehtiramının bariz nümunəsi idi.

Ehsan Süfrəsi – Dualarla Dolu Gün.Tədbir "QRAND PALACE" ailəvi məkanında təşkil olunan ehsan süfrəsi ilə davam etdi. Burada şəhidin ruhuna dualar oxundu, onun ailəsinə və yaxınlarına mənəvi dəstək göstərildi.

**Qəhrəmanlar Unudulmur, Onlar Yaşayır**

Vahid Əlisoltanov kimi igidlər ölmür — onlar xalqın yaddaşında, dualarda, şeirlərdə, məktəblilərin baxışlarında, bayrağın dalğasında yaşayırlar. Onların canı ilə yazdığı tarix, bizim sabahımıza işıq tutur. Hər dəfə "Vətən" deyəndə, hər dəfə bayrağımız yüksəldikcə, biz Vahidi və onun kimi şəhidlərimizi bir daha yaşadırıq.

Bu anım günü təkcə bir xatirə deyil — bu, bir çağırışdır: daha güclü olmaq, daha birliyə can atmaq, daha çox vətənə xidmət etmək. Vahid Əlisoltanovun adı Yeni Balakənin yaddaşında, Balakənin ürəyində, Azərbaycanın ruhunda əbədi yaşayacaq.

**Ruhu şad olsun. Qəhrəmanlar unudulmur.**

**Ramazan Abal**

# Balakən Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin rayon əhalisinə MÜRACİƏTİ

Hörmətli Balakən rayon sakinləri!

Məlum edirik ki, 2025-cı ilin oktyabr ayının 20-dən noyabr ayının 20-dək Balakən Rayon Polis Şöbəsinin Dövlət yol polisi bölməsinin əməkdaşları tərəfindən Balakən rayon ərazisində Təmiz hava aylığı keçirilir. Aylığın keçirilməsində məqsəd Azərbaycan Respublikası Daxili İşlər və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirlikləri tərəfindən nəqliyyat vasitələrindən atılan zərərli tullantılarla atmosfer havasının çirklənməsinin qarşısını almaqdan, mühərriklərinin işlənmiş qazlarında zərərli maddələrin miqdarı normadan artıq olan nəqliyyat vasitələrini müəyyən edib qanunvericiliyə uyğun tədbirlər görməkdən ibarətdir.

"Yol hərəkəti haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərini rəhbər tutaraq, Daxili İşlər Orqanları tərəfindən nəqliyyat vasitələrinin saz saxlanılması ilə bağlı aparılan nəzarət tədbirlərinə baxmayaraq,yollarda hələ də texniki vəziyyəti yol hərəkəti təhlükəsizliyinin tələblərinə cavab verməyən, habelə normadan artıq tüstü və digər çirkləndirici maddələr buraxmaqla ətraf mühitə və insan sağlamlığına zərər vuran avtomobillərə tez-tez rast olunur.

Nəqliyyat vasitələrinin itsismarı nəticəsində ətraf mühitin zərərli qazlarla çirklənməsinin qarşısının alınması və belə pozuntuların insanların həyat və sağlamlığına ciddi təhlükə törətməsi barədə sürücülərə, sərnişin və yük daşıma fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslərə bölmə əməkdaşları tərəfindən müntəzəm olaraq müvafiq izahlar verilir. Aylıq çərçivəsində uzun müddət yaşayış binalarının, evlərin həyətlərində, küçə və yollarda saxlanılan istismara tam yararsız vəziyyətdə olan nəqliyyat vasitələrinin həmin ərazilərdən götürülməsi və dövlət qeydiyyatından çıxdaş edilməsi məqsədilə onların sahibləri ilə profilaktik söhbətlərin aparılması da əsas məsələlərdən biridir.

Odur ki, Balakən Dövlət Yol Polisi rayonumuzun avtonəqliyyat vasitələrinin sahiblərinə müraciət edərək onlardan tələb edir ki, istifadələrində olan avtonəqliyyat vasitələrini "Yol hərəkəti haqqında" və "Atmosfer havasının mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanunlarının tələblərinə uyğun olaraq saz vəziyyətdə saxlanılmasına riayət etsinlər. Bununla siz əhalinin sağlamlığının qorunması və atmosfer havasının mühafizəsi işində mühüm rol oynamış olursunuz.

Gəlin, birlikdə əhalimizin sağlamlığının qeydinə qalaql

**Balakən RPŞ-nin DYPB-si**

# Balakən RMX-da şəkərli diabet xəstələri üçün maarifləndirici tədbir keçirilib



Balakən Rayon Mərkəzi Xəstəxanasında şəkərli diabet xəstələrinin maarifləndirilməsi məqsədilə tədbir təşkil olunub. Toplantıda xəstəxananın rəhbərliyi, həkim-endokrinoloqlar, provizorlar və aptek bölməsinin əməkdaşları iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan müəssisə direktoru Dilbər Quliyeva 44 günlük Vətən müharibəsi şəhidlərinin ailələrini qarşıdan gələn Zəfər Günü münasibətilə təbrik edib. O, şəhid ailələrinə göstərilən diqqət və qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu vurğulayaraq, bu dəstəyin davamlı olacağını bildirib.

Daha sonra həkim-endokrinoloq İlahə Ustayeva şəkərli diabet xəstələrinə xəstəliyin mümkün ağırlaşmaları və onların qarşısının alınması yolları barədə geniş məlumat verib. O, düzgün qidalanma, müntəzəm müayinələr və qlükoza səviyyəsinin nəzarətdə saxlanmasının vacibliyini xüsusi qeyd edib.

Tədbir çərçivəsində 150 şəkərli diabet xəstəsi dövlət hesabına "qlükometr" cihazı ilə təmin olunub. Bu addım xəstələrin gündəlik nəzarət imkanlarını artırmaqla yanaşı, profilaktik tədbirlərin effektivliyini də yüksəltməyi hədəfləyir.

**Yeni Balakən**

# Təbriklər



*Rüstəm MƏLİKOV,*
*"Ana Kürüm" qəzetinin təsisçisi və redaktoru,*
*"Tərəqqi" medallı,*
*Prezident təqaüdçüsü,*
*Ali Media mükafatı laureatı,*
*AJB və AJB-nin üzvü.*



**ANA KÜRÜM**

Salyanın ilk qəzeti 21 fevral 1924-cü ildə nəşr olunmuşdur

№ 1 (01) * 1 Oktyabr 2025-ci il * Salyan rayonunun ictimai-siyasi, ekoloji maarifləndirici qəzeti

"ANA KÜRÜM" Salyanın ilk metbuat vasitəsi,çap mediası, əvvəlki adı "Qələbə" olan qəzetin davamçısı,maddi-mənəvi varisidir."ANA KÜRÜM"-ün rəsmi media subyekti statusu alması münasibətlə dəyərli həmkarım,dostum "ANA KÜRÜM" qəzetinin təsisçisi,məsul redaktoru Rüstəm Məlikovu,redaksiya kollektivini təbrik edirəm:

Əziz Rüstəm bəy!

"Qələbə"nin ruhunu yaşadan, yeni adla – "Ana Kürüm" kimi doğulan qəzetinizin ilk buraxılışını sevinc və qürurla qarşılayıram. Bu addımınız Salyan mətbuatına yeni nəfəs, yeni ümid gətirir.

Sizə və komandanıza uğurlar arzulayıram! Qoy "Ana Kürüm" Salyanlıların səsi, sözün gücü, cəmiyyətin aynası olsun. Hər səhifənizdə rayonun ruhu, insanlarının dəyəri yaşasın.

İlk nömrəniz mübarək! Yolunuz açıq, qələminiz iti, oxucunuz bol olsun!

**Dostcasına, Ramazan Abal.**

# 2025-ci il "Konstitusiya və Suverenlik ili"dir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" olaraq elan edilib. Bu ilin "Konstitusiya və Suverenlik ili" olaraq seçilməsi heç də təsadüfi deyildir. Belə ki, məhz 2025-ci il Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30-cu, eyni zamanda Vətən müharibəsində qazanılmış zəfərin 5-ci ildönümüdür. Bu Sərəncam dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun təkmilləşdirilməsi, Azərbaycan Respublikasının müasir dövlətçiliyinin əsasını təşkil edən konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi, təbliği, suverenliyin qorunması və möhkəmləndirilməsi istiqamətində atılan əhəmiyyətli addımlardan biridir.

Müstəqillik və suverenlik millətlərin sahib ola biləcəyi ən qiymətli sərvətdir. Azərbaycan xalqı tarixboyu müstəqillik uğrunda və öz suverenliyini qorumaq üçün müxtəlif mübarizələr aparmışdır. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq, xalqımızın dövlətçilik iradəsini nümayiş etdirərək öz müqəddəratını təyin etməyə qadir olduğunu sübut etdi.

1991-ci ildə SSRİ-nin süqutundan sonra həmin il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan yenidən öz müstəqilliyini bərpa etsə də, müstəqilliyin ilk illərində ölkəmiz ciddi siyasi böhran, iqtisadi tənəzzül və çətinliklərlə üzləşdi. Ermənistanın hərbi təcavüzü, daxili siyasi qeyri-sabitlik və idarəetmə böhranı Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə və təhdidlər yaratmışdı.

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı, Azərbaycanın müstəqilliyinin qorunmasında və suveren dövlət kimi formalaşmasında həlledici rol oynadı. Dahi şəxsiyyətin əsasını qoyub həyata keçirdiyi siyasi kurs nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə etibarı gücləndirildi, ölkədə siyasi sabitlik təmin edildi, hüquqi və iqtisadi islahatlar aparıldı, hüquqi dövlət quruculuğu yolunda ən mühüm addımlardan biri atıldı – 1995-ci il noyabrın 12-də referendum yolu, 94,5 faiz səs çoxluğu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi.

Azərbaycan dövlətinin Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin şah əsərlərindən biridir. Ümummilli Lider yeni Konstitusiyanı son dərəcə mükəmməl bir sənəd kimi hazırlamağı tövsiyə edərək deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun."

Qəbulundan sonra qanunvericilik sistemini beynəlxalq standartlara uyğunlaşdırmaq üçün 2002-ci il, 2009-cu il və 2016-cı ildə keçirilmiş referendumlar vasitəsilə Konstitusiya daha da təkmilləşdirilərək ona əlavə və dəyişikliklər edilmiş, bu yeni müddəalar da, öz növbəsində, insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsinə, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə və müasirləşdirilməsinə, hüquqi islahatların daha effektiv həyata keçirilməsinə xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın törətdiyi təxribatlara və növbəti hərbi təcavüzünə cavab olaraq torpaqlarımızın işğaldan azad olunması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi müvafiq qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılması və ədalətin bərpa edilməsi niyyətiylə başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun rəşadəti və Prezident İlham Əliyevin qətiyyəti sayəsində qazanılan tarixi qələbə, eləcə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunu bərpa etmək məqsədilə 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən, cəmi 23 saat 43 dəqiqə davam edən uğurlu lokal xarakterli antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi, beynəlxalq səviyyədə tanınan sərhədləri, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi tam bərpa edilmişdir. Prezident İlham Əliyev Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunduğunu və Azərbaycan Respublikasının dövlət suverenliyinin bərpa edildiyini nəzərə alaraq 2024-cü il sentyabrın 19-da imzaladığı "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncamla hər il sentyabrın 20-nin Azərbaycan Respublikasında "Dövlət Suverenliyi Günü" kimi qeyd edilməsini qərara almışdır. Bu addım Azərbaycanın müasir tarixində daha bir şərəfli günün qeyd olunmasına səbəb olmuşdur.

Konstitusiya və suverenlik Azərbaycan dövlətinin dayaqlarıdır və bu dəyərlərin qorunması ölkənin gələcək inkişafı üçün mühüm rol oynayır. Hər bir vətəndaş konstitusiyanı öyrənməli, onun prinsiplərinə hörmət etməli və dövlətin suverenliyini qorumaq üçün çalışmalıdır. "Konstitusiya və Suverenlik ili" bu dəyərlərin daha da möhkəmlənməsinə və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verəcəkdir.

**Əsəbəli Alqayev**
**Balakən Rayon Statistika İdarəsinin rəisi**

MƏSUL REDAKTOR: Ramazan ABALOV

Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b
www.yeni balaken.az
ramazanabal@gmail.com
Mob: 050 518 17 60

HESAB NÖMRƏMİZ:
VÖEN 3800335882
H/h AZ60IBAZ41040019449452514345
Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.
Kod 805959, VÖEN 9900001881.
M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X

Qeydiyyat №: 7CADF329A82153
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
Tiraj 100